# MƏKTƏBDƏ BƏDİİ OXU GÜNÜ

## *Şair-publisist Əli Rza Xələfli ilə görüş*



2019-cu il mayın 2-də Cəbrayıl rayon M.Allahverdiyev adına Çullu kənd tam orta məktəbində "Bədii oxu" çərçivəsində şair-publisist, Kredo qəzetinin baş redaktoru Əli Rza Xələfli ilə görüş keçirildi. Görüşü giriş sözü ilə açan məktəb direktoru Araz Quliyev şairə dəvəti qəbul edib məktəbə gəldiyi üçün məktəbin müəllim kollektivi adından ona təşəkkürünü bildirdi. Tədbirin aparıcısı Xa sinif şagirdi Məmmədzadə Gülgün şair haqqında qısa və yığcam məlumat verdikdən sonra şairin həyat və yaradıcılığı haqqında məruzə etmək üçün sözü Filologiya Elmləri doktoru, yazıçı, Elmlər Akademiyasının aparıcı elmi işçisi Elçin Mehrəliyevəverdi. Elçin Mehrəliyev Azərbaycan poeziyasında öz dəsti- xətti ilə seçilən Əli Rza Xələflinin yaradıcılıq yolundan danışdı, onun indiyədək



müxtəlif mükafatlara, o cümlədən, Məmməd Araz, Beynəlxalq Rəsul Rza adına mükafatlara, "Qızıl Qələm" media mükafatına layiq görüldüyünü vurğuladı. Məruzəçi uzun müddət tanıdığı, dostluq etdiyi şairlə bağlı maraqlı görüşlərdən yaranan xatirələrini tədbir iştirakçıları



ilə bölüşdü. Görüş şagirdlərin şairin şeirləri əsasında hazırladıqları ədəbi-bədii kompazisiya ilə davam etdi. 5a sinif şagirdləri Fərruxzadə Günəş, Oruczadə Ləman, Cəbrayıllı Dəniz, 8a sinif şagirdi Behbudov Yusif, 8b sinif şagirdləri Ələkbərova Ramidə, Musayev Turalın ifasında şairin şeirlərindən nümunələr söylədilər.

Söz şair-publisistəverildi. O, tədbirin iştirakçılarına bu cür maraqlı görüşü təşkil etdiklərinə görə dərin və səmimi təşəkkürünü bildirdi. Sonra şair lirik şeirlərini oxudu.

Əli Rza Xələfli məktəbin pedoqoji kollektivi və şagirdlərinə 200 nüsxə kitab hədiyyə etdi. Şagird və müəllimlər tədbirdən yüksək təəssüratlarla ayrıldılar. Daha sonra bu görüş şairin söhbətləri ilə çay süfrəsi axasında davam etdirildi.

***Nuranə HÜSEYNOVA,***
***Cəbrayıl rayon***
***M.Allahverdiyev adına Çullu***
***kənd tam orta məktəbin***
***Azərbyacan dili və Ədəbiyyatı***
***müəllimi***